# Azərbaycan "Bakı-2015" birinci Avropa Oyunlarına ev sahibliyi etməsilə Avropanın idman tarixində silinməz izlər qoymuşdur

**"Bakı-2015" ilk Avropa Oyunları sona çatır. Təşkilatçılığın hətta standartlardan da yüksək səviyyədə olmasını Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki, Avropa Olimpiya Komitəsinin Əlaqələndirmə Komissiyasının sədri Spiros Kapralos bəyan etmiş və təşkilatçılıq potensialının kifayət qədər güclü və əhatəli olmasını təsdiq etmişlər. Oyunlardan əvvəl digər olimpiadalarda iştirak etmiş kifayət qədər idmançılar da öz çıxışlarında yaradılmış şəraitin olduqca münasib və rahat olduğundan, digərlərindən fərqli və yüksək səviyyəli təşkildən bəhs etmişlər. Bu da Azərbaycanın beynəlxalq nüfuzunun artmasına bir daha səbəb olmuşdur. Yarışların keçirildiyi günlər dünyanın ən nüfuzlu kütləvi informasiya vasitələri həm oyunların gedişindən, həm ölkəmizin milli-mənəvi dəyərlərindən, həm turist məkanlarından, həm sürətli inkişafdan, həm də multikulturalizmdən bəhs etmişlər.**

Avropa Olimpiya Komitəsinin rəsmi şəxsləri Azərbaycandakı idman infrastrukturunun yüksək, müasir səviyyədə olduğunu və ölkəmizin daha böyük həcmli Oyunlara bacarıqla ev sahibliyi edə biləcəyini inamla vurğulamışlar. Azərbaycan hətta "Bakı-2015" ilk Avropa Oyunlarının hazırlıq müddətində də öz təşkilatçılıq bacarığı ilə dünya rekordu vurmuş, bu səviyyəli yarışlara tələb olunan 7 il əvəzinə cəmi 2 il yarım vaxt sərf etmişdir. Bu proses bir daha ölkə rəhbərliyinin və xalqının gücünü, birliyini, vəhdətini ortaya qoymuşdur.

Bu tədbirin digər bir əhəmiyyəti də Oyunların dünyaya dostluq və əməkdaşlıq, sülh şəraitində birgəyaşama mesajı verməsidir. 17 gün ərzində müxtəlif irqə, dinə, xalqlara mənsub insanlar bir yaşayış məntəqəsində - atletlər kəndində yaşamış və idman mübarizəsi aparmışlar. Onları dünyanın 120 ölkəsində izləmişlər. İsrail radio verilişlərinin məşhur aparıcısı, İsrailin Birinci radiosunun informasiya xidmətinin rəhbəri, Bakıda "Bakı-2015" ilk Avropa Oyunlarının açılış mərasimində iştirak etmiş Mark Kriçevskinin - "Bakıda birinci Avropa Oyunlarının açılış mərasimi əsl şedevr idi. Bu mərasimdə Qərb və Şərq rəqabət aparmır, bir-birini tamamlayırdı" — sözləri həqiqətən də Azərbaycanın mədəniyyətlərarası bir körpü və bir vəhdətlilik nümunəsi olduğunu bir daha təsdiq edir. Macarıstanın nüfuzlu "The Budapeşt Times" jurnalı isə Azərbaycanın "Eurovision" müsabiqəsində olduğu kimi, Avropa Oyunlarının da yüksək səviyyədə təşkilindən, ölkənin neft-qaz ehtiyatlarına malik olması və düzgün aparılan siyasət nəticəsində inkişaf etməsindən, yarışların keçirildiyi arenalar, Bakının görməli yerləri və s. barədə məlumat verib. Fransa mətbuatında da "Bakı-2015" birinci Avropa Oyunları geniş işıqlandırılıb. "Equipe 21" və "BFM" televiziyaları hər gün Bakıdan bir neçə saat canlı yayım həyata keçirib. Bundan əlavə, xəbər və idman proqramlarında yarışlar geniş təhlil olunur. Böyük Britaniyanın "İbtimes" portalı Avropa Oyunları ilə bağlı geniş reportaj verib. Videoreportajda Avropa Oyunlarının əhəmiyyəti, atletlər üçün yaradılan şərait və qazanılan uğurlardan danışılıb və britaniyalı idmançıların müsahibələri verilib. Beynəlxalq Bodibildinq və Fitnes Federasiyasının rəsmi saytında birinci Avropa Oyunları çərçivəsində keçirilən bodibildinq yarışları barədə məqalə yerləşdirib. Avropa Oyunlarının yüksək səviyyədə təşkilindən bəhs edən məqalədə Azərbaycan "cənnətin bir guşəsi" kimi adlandırılır. Ölkədəki qonaqpərvərliyi xüsusi qeyd edən müəllif bodibildinq yarışlarının gedişini də təqdim edərək maraqlı fotosessiyaya da yer ayırıb. Bir sözlə, "Bakı-2015" birinci Avropa Oyunlarına hazırlıq, açılış mərasimi, oyunların gedişi, yüksək səviyyəli təşkil, xalqımızın qonaqpərvərliyi, mədəniyyət abidələri, görməli yerlər və s. dünya KİV-lərinin diqqət mərkəzində olub.

Azərbaycan Prezidenti İlham Əliyev Oyunların dostluq və sülh mesajı olduğu barədə uzaqgörənliklə dediyi bu sözlər öz təsdiqini tapdı: "İki il ərzində bir ölkədə, bir şəhərdə həm Avropa Olimpiya, həm də İslam Həmrəyliyi Oyunlarının keçirilməsinin rəmzi mənası vardır. Azərbaycan bütün dinlərin nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşadığı çoxmillətli, çoxkonfessiyalı və çoxmədəniyyətli ölkədir. Bu gün Azərbaycan daha çox aktuallaşan sivilizasiyalararası dialoqa öz dəyərli töhfəsini verir. Düşünürəm ki, bu Oyunlar Azərbaycanın mədəniyyətinin, zəngin multikulturalizm ənənələrinin, turizm imkanlarının, həmçinin Azərbaycan brendi olan məhsulların təbliği baxımından da çox faydalı olacaqdır".

Azərbaycanın idman infrastrukturunun müasirliyi, genişliyi, əlverişliliyi, yüksək səviyyəli təşkilatçılıq potensialı ölkəni dünyaya idman dövləti kimi tanıtdı və Avropa idman tarixinə öz adını qızıl hərflərlə yazdı. Ölkə və xalq bu yarışları adi idman mübarizəsi kimi yox, böyük idman bayramı kimi dünyaya təqdim edə bildi. Tamaşaçı fəallığı yarışların qızğın və yüksək ruhla keçirilməsində ən əsas şərtlərdəndir. Oyunların açılışından sonunadək azarkeş fəallığı səngiməmişdir. Oyunlara yüksək marağın bir səbəbi də bu mərasimin Azərbaycan mədəniyyət və adətlərini özündə əks etdirdiyinə görə də əsrarəngiz bir gözəllik və cəlbedicilik əxz etmişdir. Təsadüfi deyil ki, Oyunların bağlanışına bütün biletlər xeyli əvvəl satılmış, əlavə biletlər satışa çıxarılmışdır.

**Artıq sübut olundu ki, Azərbaycan "Bakı-2015" birinci Avropa Oyunlarına ev sahibliyi etməsilə Avropanın idman tarixinə öz imzasını yazmış və yaddaşlarda silinməz izlər qoymuşdur. Dövlət başçısı bu möhtəşəm tədbirin təşkilinin səviyyəsi barədə demişdir: "Biz gərgin çalışdıq, insanlarımızın, qonaqlarımızın və bütün Avropanın yaddaşında qalacaq səviyyədə Oyunları təşkil etdik. Bu fürsətdən istifadə edərək Azərbaycan xalqını, eyni zamanda, Avropa xalqlarını bu möhtəşəm hadisə ilə bir daha təbrik edirəm".**

**Ataş CƏBRAYILOV,**
**"Respublika".**